TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

TƏHSİL, MƏDƏNİYYƏT, SOSİAL VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSİYASI

12-Cİ İCLAS

16 MAY 2025-Cİ İL

Onlayn

“TÜRKPA üzv dövlətlərində təhsil sahəsində proseslərin uyğunlaşdırılması:problemlər və inkişaf perspektivləri”

HESABAT MƏRUZƏSİ

GİRİŞ

TÜRKPA-nın Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən plenar iclasında qəbul edilmiş Assambleyanın 2025-ci il üçün Fəaliyyət Planına uyğun olaraq “TÜRKPA üzv dövlətlərində təhsil sahəsində proseslərin uyğunlaşdırılması:problemlər və inkişaf perspektivləri” mövzusu Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyası iclasının gündəliyinin əsas mövzusu kimi müəyyən edilib.

Türk Dövlətləri Təşkilatının 2021-ci ildə keçirilən 8-ci Zirvə Görüşündə “Türk Dünyasına Baxış – 2040” strateji sənədinin qəbulu ilə bağlı Qərar imzalanıb. Bu strateji sənəd iqtisadiyyat, mədəniyyət, təhlükəsizlik, təhsil və bir çox digər sahələrdə ortaq fəaliyyət istiqamətlərini müəyyən edir. “Türk Dünyasına Baxış – 2040” strategiyası təhsil sahəsində bir sıra əsas vəzifə və hədəfləri müəyyən edir. Bu strategiya türk dövlətlərinin təhsil sahəsində əməkdaşlığını dərinləşdirmək, təhsilin keyfiyyətini yüksəltmək, birgə səyləri gücləndirmək məqsədi daşıyır. Buraya innovasiyalar, elmi əməkdaşlıq, rəqəmsal təhsil platformalarının yaradılması, ali təhsil, eləcə də müəllimlərin ixtisaslarının artırılması sahəsində təşəbbüslər daxildir.

Müasir dünyada təhsil sahəsində inteqrasiya və əməkdaşlıq mühüm və zəruri proseslərdir. Ölkələr və təhsil sistemləri arasında belə əlaqələrin inkişafı

beynəlxalq əlaqələrin təkmilləşdirilməsi və iqtisadi, mədəni, sosial inkişafın təşviq edilməsi ilə şərtlənir.

Beynəlxalq hesablamalara əsasən 2030-cu ilədək təxminən 84 milyon uşağın məktəbdə təhsil almayacağı və Sahara-altı Afrikada 10 yaşlı uşaqların təxminən 70%-nin sadə mətni oxuya bilməyəci gözlənilir. Bundan başqa, məktəblərin bağlanmasına və bütün nəsil üçün biliyin itkisinə səbəb olan COVID-19 pandemiyasının yaratdığı boşluqlar qalmaqda davam edir.

TÜRKPA üzv dövlətlərində əsas təhsilin (ibtidai və orta təhsil) əhatə dairəsi 95-100% təşkil edir ki, bu da böyük nailiyyətdir. Bununla belə, kənd və ucqar rayonlarda keyfiyyətli təhsilə çıxışla bağlı problemlər mövcuddur. İqtisadiyyatı daha çox inkişaf etmiş türk dövlətlərində gənclərin ali təhsilə qəbulu daha yüksək olsa da, digər türk dövlətlərində ali təhsilə çıxış iqtisadi şərait və ali təhsil müəssisələrinin sayı kimi müxtəlif amillərlə əlaqədar olaraq məhduddur. Bütün ölkələr üçün əsas problemlərdən biri şəhər və kənd yerləri arasında, xüsusən də kənd infrastrukturunun zəif inkişaf etdiyi ölkələrdə təhsilə çıxış imkanlarının qeyri-bərabər olmasıdır. Eyni zamanda, əhalisinin 30-45%-ni uşaq və gənclərin təşkil etdiyi TÜRKPA üzv dövlətləri təhsilə hər il təqribən 65,55 milyard dollar məbləğində vəsait ayırır.

UNESCO-nun məlumatına əsasən keçən il inkişaf etməkdə olan ölkələrdə hər kəsin keyfiyyətli təhsilə nail olması üçün investisiya kəsiri illik 100 milyard dollar təşkil edib. Bəzi hesablamalara əsasən dünya əhalisinin 40 %-i hökumətlərin təhsil və səhiyyədən daha çox xarici borclara vəsait xərclədiyi ölkələrdə yaşayır.

Bu baxımdan, təhsil sahəsində əməkdaşlığın gücləndirilməsi təhsil sistemlərinin keyfiyyətinin yüksəldilməsində, onların davamlılığının və müasir çağırışlara uyğunlaşmasının təmin edilməsində əsas rol oynayır. Söhbət təkcə maliyyə investisiyalarından deyil, həm də dövlətlər, təhsil müəssisələri, özəl sektor və beynəlxalq təşkilatlar arasında əməkdaşlığa strateji yanaşmadan gedir. Təhsil sahəsində investisiyalar infrastruktur, innovativ texnologiyalar və təhsil proqramları kimi müxtəlif aspektlərə yönəldilə bilər.

Təhsil üzv dövlətlər arasında çoxtərəfli əməkdaşlıq istiqamətində gündəlikdə duran prioritet məsələlərdən biridir. Təhsil ehtiyaclarını ödəmək məqsədilə qarşılıqlı faydalı həlli yollarının axtarışında üzv dövlətlər tərəfindən kurrikulum və kredit sisteminin uyğunlaşdırılması, diplomların və ixtisasların tanınması sahəsində əməkdaşlıq və təhsil sistemlərinin gələcək inkişafı məsələlərinə diqqət yetiriləcəkdir. Bu kontekstdə Komissiya qanunvericiliklərin yaxınlaşdırılması və hüquqi şərtlərin unifikasiyası məqsədilə TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində əməkdaşlığın problemləri və perspektivlərini müzakirə edəcəkdir.

AZƏRBAYCAN

Azərbaycan Respublikası TÜRKPA-nın digər üzv dövlətləri ilə elm və təhsilin müxtəlif sahələrində əməkdaşlıq edir. Bu əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında təhsil sahəsində aşağıdakı beynəlxalq müqavilələr imzalanıb:

• 31 oktyabr 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş";

• 31 oktyabr 2017-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Ali Təhsil Şurası arasında ali təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu";

• 19 fevral 2019-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol";

• 19 fevral 2024-cü il tarixində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə–Azərbaycan Universitetinin (TAU) yaradılmasına dair Anlaşma Memorandumu";

• 24 aprel 2024-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş";

• 3 aprel 2017-ci il tarixində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş".

Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri ilə Türkiyə Respublikası və Qazaxıstan Respublikasının ümumi təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələri mövcuddur.

Belə ki, Bakı şəhəri Novruzov qardaşları adına 36 saylı tam orta məktəb ilə Aktau şəhərindəki Nazarbayev adına Kimya-Biologiya Təmayüllü İntellektual Məktəbi, Mikayıl Müşfiq adına 18 saylı tam orta məktəb ilə Yıldız Tınas İzmiroğlu Anadolu Liseyi, Cəlilabad rayonu Akademik Zərifə Əliyeva adına 7 saylı orta məktəb ilə Nevşehir Rəcəb Tayyib Ərdoğan Anadolu İmam Hatip Liseyi, Biləsuvar rayonu Əliabad kənd tam orta məktəbi ilə Dənizli Şəhər Atatürk Orta Məktəbi, Şamaxı rayonu Sabir qəsəbə tam orta məktəbi ilə Kocaeli/Dərincə - Respublika Anadolu orta məktəbi və Kastamonu Anadolu Liseyi arasında əməkdaşlıq müqavilələri imzalanıb.

Eyni zamanda Yevlax şəhəri S.Vurğun adına 5 saylı tam orta məktəb ilə Samsun şəhəri Canik Uludağ orta məktəbi, Ağsu rayonu M. Mirzəməmmədov adına Aratkənd kənd orta məktəbi və Zonquldak/Alaplı-Karşıyaka ibtidai məktəbi və Elmaz Kaşka Amasya Mehmed Bilgili ibtidai məktəbi, Balakən rayonu 2 saylı tam orta məktəbi ilə və Rize Fatma Nuri Erkan Elm və Sənət Mərkəzi və Adıyaman/Sincik-İmam Hatip liseyi, Balakən rayonu Ə.Şirinov adına Qaravəli kənd orta məktəbi və Cemal Gürbüz Atik Orta məktəbi və Dənizli İncələr Atatürk Orta məktəbi arasında əməkdaşlıq müqavilələri mövcuddur.

Türkiyə Respublikası ilə peşə təhsili sahəsində əməkdaşlıq çərçivəsində 5 ixtisas qrupu və 10 ixtisas üzrə təhsil proqramları (kurikulumları) və tədris planları uyğunlaşdırılıb, məzmunla bağlı fərqlərin - həftələrin sayı, saat bölgüsü, ümumi təhsil fənləri və ixtisas modullarının uyğunlaşdırılması istiqamətində işlər aparılıb.

2022-ci ildən bu günədək müxtəlif peşə istiqamətləri üzrə 50 dərslik (2023-cü ildə 9 dərslik, 2024-cü ildə 13 dərslik) tərcümə edilib.

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol”a uyğun olaraq, Türkiyə Respublikasında müxtəlif peşə-ixtisas təhsili müəssisələrinin müəllim-pedaqoji heyəti üçün pedaqoji kadrların ixtisas biliklərinin artırılması və müasir tədris yanaşmaları ilə tanış edilməsi məqsədilə ixtisasartırma təlimləri təşkil edilir. Təlimlər Türkiyə Respublikasının İzmir, İstanbul, Ankara, Bursa və Antalya şəhərlərində yerləşən müxtəlif peşə təhsili müəssisələrində təşkil olunur. 2022-ci ildən İKT, avtomobil təmiri, qaynaq, moda dizaynı, mebel sənayesi, dizayn və digər ixtisaslar üzrə 52 müəllim, o cümlədən 27 rəhbər işçi üçün təlimlər təşkil olunub.

2024-cü ilin fevral ayında “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb.

QAZAXISTAN

Qazaxıstan TÜRKPA-nın digər üzv dövlətləri ilə təhsil sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirir, ibtidai təhsildən ali təhsilədək bütün səviyyələrdə əlaqələri gücləndirməyə və təhsil sahəsində əməkdaşlığı genişləndirməyə çalışır. Qazaxıstan Assambleyanın əsas dövlətlərindən biri kimi ortaq təhsil proqramlarının, akademik mübadilələrin və elmi tədqiqatların inkişafına yönəlmiş mühüm təşəbbüs və layihələrə önəm verir.

1 mart 2025-ci il tarixində “Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Qazaxıstan Respublikasının Astana şəhər Akiməti arasında uzunmüddətli ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş” imzalanıb.

3 aprel 2017-ci il tarixində “Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb. Saziş iki ölkə arasında bərabərlik və qarşılıqlı fayda əsasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədini daşıyır.

2022-ci ildə Qazaxıstan Respublikasının ali təhsil müəssisələrinin 43 tələbəsi Azərbaycanın ali təhsil müəssisələrində təhsil alıb.

11 mart 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidentinin Qazaxıstan Respublikasına rəsmi səfəri çərçivəsində “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş” imzalanıb.

Qazaxıstan ilə Qırğızıstan arasında ikitərəfli əlaqələrin və təhsil proqramlarının inkişafına yönəlmiş bir sıra əsas sazişlər imzalanıb və təhsil sahəsində fəal əməkdaşlıq inkişaf etdirilir:

- 4 iyul 2006-cı il tarixində “Qazaxıstan Respublikası Hökuməti ilə Qırğız Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb. Bu Saziş bakalavr və magistr proqramları üzrə tələbələrin illik mübadiləsini nəzərdə tutur.

- 21 oktyabr 2019-cu il tarixində “Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi ilə Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb. Bu saziş iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın dərinləşməsinə töhfə verən akademik mübadilə, ortaq elmi tədqiqatlar, təhsil və elm mərkəzlərinin yaradılması, o cümlədən elmi konfrans və simpoziumların təşkilini əhatə edir.

- 12 iyun 2020-ci il tarixində “Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi ilə Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi arasında tələbə və fakültələr üçün akademik mübadilə proqramı haqqında Saziş” imzalanıb. Proqram tələbə və professor-müəllim heyətinin mübadiləsini, ixtisasların artırılmasını və hər iki ölkənin akademik nümayəndələrinin bilik və bacarıqlarını dərinləşdirməyə imkan verən qısamüddətli təhsil kurslarının təşkilini nəzərdə tutur.

- 5 oktyabr 2022-ci il tarixində “Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi ilə Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi arasında tələbələr və aspirantlar üçün ortaq qrant proqramları haqqında Saziş”

imzalanıb, ortaq layihələr çərçivəsində hər iki ölkənin tələbə və aspirantlarına təhsil almaq və elmi tədqiqatlar aparmaq üçün qrantlar ayrılıb. Bu, Qazaxıstan və Qırğızıstan arasında akademik və elmi əlaqələrin inkişafına dəstək verir.

2023-cü ilin birinci yarısında Qırğız Respublikasının ali təhsil müəssisələrində akademik mobillik çərçivəsində Qazaxıstan Respublikasının ali təhsil müəssisələrinin 102 tələbəsi təhsil alıb, onlardan 86-sı bakalavriat, 12-si magistratura və 4-ü doktorantura səviyyələrində təhsil alıb. 2022-ci ildə Qazaxıstan ölkənin ali təhsil müəssisələrində təhsil alan Qırğızıstan vətəndaşları üçün illik kvota yerlərini (5-dən 50-yə) artırıb.

26 may 2022-ci il tarixində Qazaxıstan Respublikasının Prezidenti Kasım Jomart Tokayevin Qırğız Respublikasına rəsmi səfəri çərçivəsində Bişkekdə Əl-Farabi adına Qazax Milli Universitetinin filialının açılış mərasimi keçirilib.

Qazax-Qırğız Universiteti 2012-ci ildə yaradılıb. Universitetin missiyası gənc mütəxəssislərə Avropa standartlarına əsaslanan peşəkar səviyyədə ali təhsil almaq imkanı verməklə Qazaxıstan və Qırğızıstanın təhsil, mədəni, iqtisadi və sosial inkişafına töhvə verməkdən ibarətdir.

10 may 2022-ci il tarixində Ankarada “Qazaxıstan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb. Saziş 10 may 2024-cü il tarixində qüvvəyə minib.

Bu müqavilə aşağıdakı məsələləri əhatə edir:

• müəllimlərin, tərbiyəçilərin və təhsil müəssisələrinin rəhbərlərinin təcrübə mübadiləsi;

• təhsil sahəsində yeni texnologiyaların tətbiqi üzrə təcrübə mübadiləsi;

• tələbələrin qarşılıqlı əsasda elmi və mədəni layihələrdə iştiraka həvəsləndirilməsi;

• elmi tədqiqatların və konfransların təşkil edilməsi;

• ortaq proqramlar əsasında təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı;

• gənclər siyasəti sahəsində əməkdaşlığın inkişafı.

İkitərəfli əməkdaşlığın ən parlaq nümunələrindən biri 31 oktyabr 1992-ci il tarixində Qazaxıstan Hökuməti ilə Türkiyə Hökuməti arasında imzalanmış müqavilə əsasında Xoca Əhməd Yasəvi adına Beynəlxalq Qazax-Türk Universitetinin təsis edilməsidir. Universitet Türkistan şəhərində yerləşir və iki ölkənin ortaq təhsil layihəsi kimi fəaliyyət göstərir.

Həmçinin Qazaxıstan türk mədəniyyətinin, dilinin və tarixinin öyrənilməsinə yönəlmiş ortaq elmi araşdırmaları təşviq edən Türk Akademiyasının təsisçilərindən biridir. Akademiya həmçinin ortaq tədqiqat layihələrinin inkişafına töhfə verən təhsil və texnologiya sahəsində tədqiqatları dəstəkləyir. 2022-ci ildə Türk Akademiyasının Elmi Şurasına sədrliyin Türkiyədən Qazaxıstana keçməsi ölkənin türk dünyası elm və mədəniyyətinin inkişafında fəal iştirakını sübüt edir.

Qazaxıstan bu təşəbbüslərdə fəal iştirak etməklə TÜRKPA üzv dövlətlərinin tələbə və müəllimləri üçün onlayn təhsil və ortaq təhsil platformalarını inkişaf etdirir.

QIRĞIZISTAN

Qırğızıstanın təhsil sahəsində son illərdə təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsil xidmətlərinin əlçatanlığının artırılması və qlobal iqtisadiyyatın müasir tələblərinə uyğunlaşdırılması istiqamətində mühüm dəyişikliklər baş verib. Ölkədə təhsil islahatları fəal şəkildə həyata keçirilir, infrastruktura sərmayə qoyulur, tədris prosesində yeniliklər edilir, tələbələr və təhsil işçiləri üçün şərait yaxşılaşdırılır.

24 aprel 2024-cü il tarixində "Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi ilə Azərbaycan Hökuməti arasında əməkdaşlıq Saziş"i imzalanıb.

Ümumilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Qardaşlaşmış məktəblər" layihəsi çərçivəsində Bişkekdəki 20 saylı məktəblə Bakıdakı 205 saylı məktəb arasında dostluq əlaqələri qurulub.

14-15 mart 2024-cü il tarixində Bakıda tarix və mədəniyyət abidələrinin və irs obyektlərinin mühafizəsi, bərpası, tanınması, idarə olunması və səmərəli istifadəsi sahəsində iştirakçılar arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə "Türk dünyasının tarixi-mədəni irsinin UNESCO nöqteyi-nəzərindən qorunub saxlanılması" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

6 may 2024-cü il tarixində Bakıda ortaq əlifbanın təşviq edilməsi istiqamətində ideyaların və zəruri yeni addımların müzakirəsi məqsədilə Türk dünyası ortaq əlifba komissyasının 2-ci iclası keçirilib.

Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi tərəfindən Qırğızıstan-Türkmənistan ikitərəfli əlaqələrin inkişafı ilə əlaqədar cari məsələlər nəzərə alınaraq, Qırğızıstan-Türkmənistan hökumətlərarası komissiyasının 6-cı iclasına dair protokolun hazırlanması üçün aşağıdakı təkliflər təqdim edilib:

• Qırğız Respublikasının Prezidenti S.N.Japarovun Türkmənistana rəsmi səfəri çərçivəsində əldə edilmiş razılaşmalar üzrə tədbirlər planının həyata keçirilməsi məqsədilə Qırğız Respublikasının Nazirlər Kabineti ilə

Türkmənistan Hökuməti arasında təhsil sənədlərinin qarşılıqlı tanınması haqqında Saziş”in imzalanması (27-28 iyun 2021-ci il);

• məktəblər və universitetlərdə iki ölkə arasında mədəni dəyərləri və görkəmli şəxsiyyətlər haqqında mühazirələrin təşkili;

• Təhsil müəssisələrinin rəqəmsallaşdırılması və iqlim dəyişmələrinə uyğunlaşdırılması məqsədilə kənd təsərrüfatı texnologiyaları ilə bağlı təlimlərin keçirilməsi üzrə təcrübə mübadiləsi.

Qırğız Respublikası ilə Özbəkistan Respublikası arasında təhsil və elm sahəsində bir sıra sazişlər imzalanıb:

• 1996-cı ildə “Mədəniyyət, səhiyyə, elm, təhsil, turizm və idman sahələrində əməkdaşlığın dərinləşdirilməsi haqqında Saziş”;

• Təhsil təşkilatları arasında əməkdaşlıq.

Orta təhsil sahəsində bir neçə layihə həyata keçirilib: 2018-ci ildə Oşşaarda 630 yerlik gimnaziya istifadəyə verilib. 2021-ci ildə Batken rayonunun Marqun kəndində məktəbin tikintisinə başlanılıb və 2022-ci ildə başa çatdırılıb.

Həmçinin, ölkələr arasında əməkdaşlığın mühüm hadisələrindən biri də Qırğızıstan və Özbəkistan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün qeyd edilməsi çərçivəsində 3-4 oktyabr 2023-cü il tarixlərində keçirilən rektorların 1-ci beynəlxalq forumudur. Bundan əlavə, 18-19 iyul 2024-cü il tarixlərində Qırğız Respublikası Prezidentinin Özbəkistan Respublikasına səfəri çərçivəsində iki ölkənin ali təhsil müəssisələrinin 2-ci forumu keçirilib.

Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi “Qırğız Respublikasının Nazirlər Kabineti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş” layihəsini hazırlayıb və Qırğız Respublikasının nazirlikləri və idarələrinin rəy və tövsiyələrini nəzərə almaqla, yenidən təsdiq olunmaq üçün göndərib. Bu Sazişin məqsədi iki ölkə arasında təhsil sahəsində əməkdaşlığı inkişaf etdirməkdir.

26-27 oktyabr 2023-cü il tarixlərində Qazaxıstan Respublikasının Almatı şəhərində ortaq türk əlifbasının tətbiqinə həsr olunmuş “Ortaq türk əlifbasının inteqrativ rolu: elmi və sosial aspektlər” mövzusunda beynəlxalq konfrans keçirilib.

7-8 aprel 2023-cü il tarixlərində Bakıda TÜRKSOY üzv dövlətlərinin UNESCO üzrə milli komissiyalarının 9-cu iclası keçirilib.

Qırğız Respublikası ilə Qazaxıstan Respublikası arasında əməkdaşlıq aşağıdakı qanunvericilik çərçivəsi əsasında həyata keçirilir:

- “Qırğız Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması və sertifikatlaşdırılması sahəsində əməkdaşlıq haqqında Saziş” (Almatı, 8 aprel 1997-ci il);

- “Qırğız Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında elm və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş” (Almatı, 8 aprel 1997-ci il);

- “Qırğız Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” (Astana, 4 iyul 2006-cı il);

- Qırğız Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Qırğız Respublikasında məktəb tikintisi haqqında Saziş (Bişkek, 22 avqust 2012-ci il).

Hazırda Qırğız Respublikası və Qazaxıstan Respublikasının ali təhsil müəssisələri Şanxay Əməkdaşlıq Təşkilatının Universitetlər Şəbəkəsi çərçivəsində, həmçinin universitetlərarası sazişlər və memorandumlar əsasında ortaq proqramlar həyata keçirirlər.

TÜRKİYƏ

Türkiyə türk dövlətləri arasında əlaqələri və əməkdaşlığı gücləndirmək məqsədilə daha geniş strategiyanın bir hissəsi olan TÜRKPA-nın təhsilə dair təşəbbüs və layihələrində fəal iştirak edir. Bu töhfə təhsil proqramları və elmi mübadilələrdən təhsil müəssisələrinin yaradılmasına və elm və texnologiya sahəsində ortaq layihələrin həyata keçirilməsinədək geniş sahələri əhatə edir.

2023-2024-cü tədris illərinə əsasən Türkiyənin ali təhsil müəssisələrində 40354 azərbaycanlı tələbə təhsil alır ki, onlardan 604-ü Türkiyə təqaüdü ilə təhsil alır.

29 noyabr – 5 dekabr 2021-ci il tarixlərində Ali Təhsil Şurasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Həmin səfər çərçivəsində Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığa dair məsələlər və yeni tərəfdaşlıq əlaqələrinin qurulması istiqamətində səylərinin nəzərdən keçirilməsi müzakirə edilib. Bundan əlavə, görüşdə Azərbaycanda müştərək universitetin yaradılması səylərinə start verilməsi ilə bağlı qərar qəbul edilib.

2021-ci il fevralın 19-da imzalanmış “Türkiyə ilə Azərbaycan arasında peşə təhsili sahəsində əməkdaşlıq haqqında Protokol”a uyğun olaraq, iki peşə liseyinin (peşə məktəbi) açılması planlaşdırılır.

2023-2024-cü tədris ilində Türkiyənin ali təhsil müəssisələrində 2282 qırğızıstanlı tələbə təhsil alıb.

Qırğızıstanda yaşayan Türkiyə vətəndaşlarının övladlarının təhsil ehtiyaclarını ödəmək üçün Nazirliyin razılığı ilə Bişkekdə türk ibtidai və orta məktəbin və İmam Hatip orta məktəbinin açılması məqsədəuyğun hesab edilib.

Qırğız-Türk Anadolu Qızlar Peşə Orta məktəbi 1992-1993-cü tədris ilinin əvvəlində açılıb. Şagirdlər 8-ci sinfi müvəffəqiyyətlə bitirən namizədlər arasından imtahan yolu ilə seçilir. Tədris 1 il təlim və 3 il təhsil olmaqla ümumilikdə 4 il davam edir.

Hər tədris ilində Qırğızıstandan 50 qız şagird iki sinif üzrə imtahandan sonra məktəbə qəbul olunur. Hazırlıq sinfində türk və ingilis dilləri tədris olunur; Hazırlıq sinfini bitirən tələbələr orta qiymətlərindən və üstünlüklərindən asılı olaraq geyim istehsalı texnologiyası və informasiya texnologiyaları fakültələrinə təyinat alırlar. Məktəbin 96 nəfərlik yataqxanası mövcuddur.

Məzunlar Qırğızıstan universitetlərində təhsillərini davam etdirirlər, bəziləri isə Beynəlxalq Tələbələr üçün İmtahan (YÖS) çərçivəsində öz imkanları hesabına ali təhsil almaq üçün Türkiyəyə gəlir, bəzi tələbələr isə Türkiyə Bursları proqramı çərçivəsində təqaüd alırlar.

29 yanvar 1996-cı il tarixində Nazirliyin 1158 saylı icazəsinə uyğun olaraq Türk Təhsil Mərkəzi təhsil fəaliyyətinə başlayıb. Manas Universiteti tərəfindən ayrılmış sinif otaqlarında fəaliyyətini davam etdirir. Türk dili və türk mədəniyyəti dərsləri tədris edilmir. Türkiyənin fəaliyyətinin bir hissəsi olaraq Türk Dili Tədris Mərkəzinin fəaliyyəti çərçivəsində əsasən ali təhsil müəssisələrində, eləcə də bəzi orta ixtisas təhsili müəssisələrində türk dili kursları təşkil edilir. Müəyyən edilmiş əməkdaşlıq protokollarına uyğun olaraq Türkiyə Türk Dili Tədris Mərkəzinin 2023-2024-cü tədris ili üçün fəaliyyəti davam etdiriləcək, Talas, Narın, Balıqçı, Özgen və Qızıl-Qayı ilə yanaşı Bişkek, eləcə də Oş, Cəlalabad, Karakol və Batken daxil olmaqla şəhərlərdə türk dili kursları fəaliyyət göstərəcəkdir. Belə ki, 2023-2024-cü tədris ilindən Türkiyə Qırğızıstanın bütün bölgələrində Türk Dili Tədris Mərkəzinin kurslarına start verilib. Hazırda 81 açıq qrupda 1900-ə yaxın tələbə türk dilini öyrənməyə başlayıb.

İki ölkə hökumətləri arasında 1995-ci il sentyabrın 30-da imzalanmış müqaviləyə əsasən Bişkekdə Qırğız-Türk Manas Universiteti yaradılmış və 1997-1998-ci tədris ilindən təhsil fəaliyyətinə başlayıb.

Qırğız-Türk Manas Universiteti 11 fakültə, 1 ali məktəb, 1 peşə məktəbi və 4 institut vasitəsilə təhsil fəaliyyətini davam etdirir. Universitetə tələbələr üç əsas mənbədən qəbul edilir: Qırğızıstan, Türkiyə və digər türk dövlətləri, eləcə də müxtəlif ölkələr.

2023-2024-cü tədris ilində Türkiyənin ali təhsil müəssisələrində 11958 qazaxıstanlı tələbə təhsil alıb.

Nazir Yusuf Tekin 5 fevral 2024-cü il tarixində Qazaxıstanın Ankaradakı səfiri Yerkebulan Sapiyev ilə görüşüb. Görüşdə iki ölkə arasında təhsil sahəsində əlaqələr müzakirə olunub. Görüşdə Qazaxıstanın "CodiPlay" şirkətinin Nurdağı rayonunda tikiləcək məktəb də daxil olmaqla, ingilis və türk dillərində 5 rəqəmsal təhsil platformasını Qaziantepdəki 5 məktəbə köçürmək niyyəti barədə məlumat verilib. Bundan əlavə, Nurdağında məktəb tikintisinin sürətləndirilməsi ilə bağlı müraciət edilib. Türkiyə tərəfi Qazaxıstanda məktəb açmaq istəyini və bu təşəbbüsün dəstəklənməsinin zəruriliyini bildirib.

20-24 noyabr 2023-cü il tarixində Qazaxıstan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının sifarişi ilə Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətləri arasında insan resursları sahəsində əməkdaşlıq çərçivəsində Prezident yanında Kadrların İdarə Edilməsi İdarəsi Qazaxıstanın dövlət qulluqçularından ibarət nümayəndə heyətinin müxtəlif dövlət qurumlarına işgüzar səfərini təşkil edib. 22 noyabr 2023-cü il tarixində Strategiya İnkişafı Departamenti Milli Təhsil Sistemi, Xüsusi Təhsil və Metodiki Xidmətlər Baş İdarəsi isə məktəblərdə istedadların idarə edilməsi mövzularında təqdimatlar keçirib. Bundan əlavə, nümayəndə heyətinə peşə təhsili yönümlü məktəblərə ziyarət etmək məqsədilə köməklik göstərilib.

NƏTİCƏ

Türk dövlətləri arasında təhsil sahəsində əməkdaşlıq fəal şəkildə inkişaf edir və akademik mübadilələr, ortaq təhsil proqramlarının yaradılmasından təhsilin keyfiyyətinin yüksəldilməsi və yeni texnologiyaların tətbiqinədək müxtəlif sahələri əhatə edir.

Əməkdaşlıqda ən diqqətəlayiq addımlardan biri ortaq universitetlərin və təhsil proqramlarının yaradılması olub. Təhsilin keyfiyyətinin yüksəldilməsi və diplomların bütün TÜRKPA üzv dövlətlərində tanınmasını təmin etmək üçün təhsil sistemlərinin uyğunlaşdırılması məqsədilə ortaq təhsil standartları və kurikulumların hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bu səylər çərçivəsində ortaq magistratura və doktorantura, müəllim mübadiləsi proqramları, eləcə də təkmilləşdirmə kursları və ixtisasartırma proqramları həyata keçirilir.

Son illərdə pedaqogika, təhsil texnologiyaları və metodları sahəsində innovasiyalara yönəlmiş ortaq elmi tədqiqat və təhsil layihələri fəal şəkildə inkişaf edir. Bu tədqiqatlar təhsilin keyfiyyətinin yüksəldilməsinə və təhsilə yeni yanaşmaların tətbiq edilməsinə kömək edir. Türk dili və mədəniyyətinin qorunub saxlanılması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edən dil və mədəni mübadilələrə xüsusi diqqət yetirilir.

TÜRKPA üzv dövlətləri mütəmadi olaraq təhsil, elm və texnologiya sahəsində aktual məsələlərin müzakirə olunduğu beynəlxalq konfranslar, simpoziumlar və forumlar təşkil edir. Bu tədbirlər təcrübə mübadiləsi, yeni təhsil təşəbbüslərinin təqdim edilməsi və ortaq layihələrin təşviqi üçün platforma yaradır. Əhalinin bütün təbəqələrinin, o cümlədən əlilliyi olan şəxslərin kənd yerlərində və daha az imkanlı bölgələrdə təhsilə çıxışının təmin edilməsi diqqət mərkəzindədir. TÜRKPA-nın ortaq layihə və proqramları bu sahələrdə təhsilin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsinə yönəlir.

Əldə edilmiş nailiyyətlərə baxmayaraq, təhsil sahəsində əməkdaşlıq təhsil sistemlərindəki fərqlər, iqtisadi məhdudiyyətlər və təhsilin keyfiyyəti kimi bir sıra problemlərlə üzləşir.

Akademik əlaqələrin gücləndirilməsi, ortaq təhsil müəssisələri və proqramlarının yaradılması, rəqəmsal təhsilin və dil mübadiləsinin inkişafı — bütün bunlar təhsil mühitinin yaxşılaşdırılmasına və ölkələr arasında mədəni və elmi əlaqələrin möhkəmləndirilməsinə töhfə verir.

Mövcud maneələrə baxmayaraq, TÜRKPA üzv dövlətləri təhsil sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə davam edir ki, bu da əməkdaşlığın təkmilləşdirilməsi və bütün ölkələr üçün birliyə nail olunması istiqamətində yeni imkanlar yaradır.